AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

M.F.AXUNDOV adına
AZƏRBAYCAN MİLLİ KİTABXANASI

# YADDAN ÇIXMAZ QARABAĞ

BAKI– 2007

# AZƏRBAYCAN RESPUBLİKASI
# MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

## M.F.AXUNDOV adına
## AZƏRBAYCAN MİLLİ KİTABXANASI




# YADDAN ÇIXMAZ QARABAĞ

## Metodik tövsiyə

*Mədəniyyət və Turizm Nazirliyi*
*nəzdində Koordinasiya Şurasının*
*2007-ci il 17 aprel tarixli*
*2 nömrəli protokolu ilə çapa*
*tövsiyə olunub*

**BAKI – 2007**

*Tərtibçi:* *Xuraman İsmayılova*, ***M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının Kitab fondlarının mühafizəsi şöbəsinin müdiri***

***Redaktor:*** *Kərim Tahirov,* ***M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru***

***Kompüter yığımı və dizaynı:*** *Günel Əfəndiyeva*

**Yaddan çıxmaz Qarabağ: Metodik vəsait.- B., 2007.- 32 s.**

**© M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2007**

**Ünvan:AZ-1000 Bakı ş., Xaqani küç. 29;**
**E-mail: anl@aznet.org**

**M.F.Axundov ad. Milli Kitabxananın**
**mətbəəsində ofset üsulu ilə**
**çap olunmuşdur.**
**Çapa imzalanmışdır: 20.04.2007**
**Sifariş: 9**
**Tirajı 300**
**Pulsuz**

AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

M.F.AXUNDOV adına
AZƏRBAYCAN MİLLİ KİTABXANASI




# YADDAN ÇIXMAZ QARABAĞ

## Metodik tövsiyə

BAKI – 2007

## ƏZƏLİ, ƏBƏDİ TORPAĞIMIZ QARABAĞ

Nə əcəb dövlət imiş seyri-şikari Qarabağ,
Nə gözəl nemət imiş söhbəti-yari Qarabağ.
Rəşki-mişk ənbər imiş buyi-qubari Qarabağ,
Abi-heyvanimiş ənhari-bikari Qarabağ.
Kövsəri-tubi imiş çayi-çinari Qarabağ,
Aləmi-cənnət imiş dar-didari Qarabağ.
İmdi bildim nə imiş vəsf həzari Qarabağ,
Yeridir ki, çəkərəm ah və zari, Qarabağ.
Dağlayıbdır məni bir lalə üzari-Qarabağ,
Yandırıbdır məni bir nari-Nigari-Qarabağ.

**Seyid Nigari,**
XIX əsr Azərbaycan şairi

Dünyanın görkəmli alimləri Azərbaycanı təbii muzey adlandırmışlar. Bu muzeyin ən unikal mərkəzi Qarabağdır. Kür və Araz çaylarının bərəkətli aralığında yerləşən Qarabağın tarixi kökləri çox qədimlərə gedib çıxır. Elmi dəlil və əsaslarla deyə bilərik ki, ilk insan məskənlərindən biri də Qarabağdır. Məhz burada, Azıx mağarasında insan həyatının və fəaliyyətinin qədim izləri aşkara çıxarılmışdır. Azıxda 350-400 min il əvvəl yaşamış insan çənəsinin bir hissəsi tapılmışdır.

Qarabağ öz gözəlliyi, yeraltı, yerüstü sərvətləri ilə yadellilərin diqqətini cəlb etmiş, bu gözəl diyar zaman-zaman qanlı hərb meydanına çevrilmişdir. Ac qurdlar süfrəsində yağlı tikə olan Qarabağ didilmiş, əzilmiş, amma sınmamış, öz əzəməti, vüqarı ilə düşmənlərə meydan oxumuşdur. Böyük imperiyaların siyasətlərinin qurbanı olan füsunkar Qarabağ 15 ildir ki, düşmən tapdağındadır.

Azərbaycanın təbii konservatoriyası adlandırılan, əfsanəvi gözəlliyə malik Şuşa, qədim muğam musiqimizin beşiyi Ağdam, şəfalı İstisuyu, qızıl yataqları ilə məşhur olan Kəlbəcər, tarix boyu

düşmən gülləsinə sinəsini sipər etmiş qəhrəman Laçın, çiçəklər diyarı Cəbrayıl, qüdrətdən səngərli Qubadlı, Zəngilan, bərəkətli Füzuli, XX əsrin ən böyük faciəsini yaşamış, qan içində boğulmuş Xocalı bu gün ən ağrılı günlərini yaşayır.

Öz təbii gözəlliyi, bənzərsiz iqlimi ilə Qafqazın yaraşığı olan Qarabağ həm də müalicə ocağıdır. Təbii iqlim şəraitinə görə mütəxəssislər Şuşa kurortu iqlimini Abastumani və Kislovodsk ilə, hətta dünyanın məşhur İsveçrə kurortu Davosdan üstün hesab edirlər. Qarabağın, Şuşanın təkrarsız gözəlliyi vaxtilə Azərbaycanda olmuş böyük rus şairi M.Lermontovun, məşhur fransız ədibi A.Dümanın, istedadlı rus rəssamı V.Vereşaginin, lirika ustası S.Yeseninin də diqqətini cəlb etmişdir. V.Vereşagin Qarabağın gözəlliyini tablolarda əks etdirmiş, səyyah və tarixçi Potto Şuşanın təsvirinə belə başlamışdır: “Sıldırım dağlar və qayalar arasında yerləşən Şuşa qalası buludlara qədər yüksəlmişdir”. S.Yesenin isə fikrini bir cümlə ilə ifadə etmişdir: “Kim oxumursa, o, qarabağlı deyil”.

Bəli, Qarabağ dünya mədəniyyətinə çox nadir incilər bəxş etmiş bir diyardır. Qarabağ bütünlükdə mədəniyyətimizin, musiqimizin beşiyidir. Təkcə XIX əsrdə balaca bir şəhər olan Şuşada 95 şair, 22 musiqiçi, 38 xanəndə-müğənni, 16 rəssam, 5 astronom, 18 arxitektor, 16 həkim yetişmişdi. Bütün Şərqdə əsrin ən böyük universal-elmi ensiklopedik biliyə malik alimi Mirmöhsün Nəvvab da şuşalı idi. Dünya korifeyləri siyahısına adını yazmış Üzeyir Hacıbəyov, Bülbül, Rəşid Behbudov qarabağlı idilər. Şuşa həm də milli-memarlıq abidələrinin ən çox və ən yaxşı qorunub saxlandığı bir məkan idi. Təsadüfi deyil ki, abidələr məskəni Şuşa 1977-ci ildə Azərbaycan hökuməti tərəfindən tarix-memarlıq qoruğu elan olunub. Şuşa şəhəri bütünlükdə tarix-mədəniyyət abidəsidir.

Əfsuslar olsun ki, 1988-ci ildən Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində ərazimizin 20 faizi ilə bərabər qiymətli mədəni sərvətlərimizi də itirdik. Bir milyondan artıq soydaşımız öz yurd-yuvalarından qaçqın düşdü. Qədim Azərbaycan torpaqları

olan indiki Ermənistan ərazisində maddi-mədəniyyət nümunələrimiz məhv edilir. Təsadüf üzündən məhv edilməmiş abidələr isə İran və ya Türkmən mədəniyyət abidələri kimi təqdim olunur.

Hamıya yaxşı məlumdur ki, Cənubi Qafqaz, o cümlədən indiki Ermənistan erməni etnosunun vətəni deyildir. Tarix göstərir ki, erməni tayfaları Cənubi Qafqazdan çox uzaqlarda yaşamışdır. XIX əsrin erməni tədqiqatçıları belə hesab edirlər ki, ermənilər qaraçılardan, daha dəqiq "qəddar ürəkli" – ayk (xayk) adlandırılan köçəri tayfadan əmələ gəliblər. Bir sıra Avropa və Azərbaycan tarixçilərinin dediklərinə görə, onların ilk vətəni Balkanlar olub ki, xristianlığı da məhz orada qəbul ediblər.

Tarix boyu təcavüzkar və hiyləgər ermənilər özlərini məzlum xalq kimi qələmə verərək dünyanın diqqətini çəkmək istəyiblər. Lakin həqiqəti gizlətmək, pərdələmək o qədər də asan deyil. Ermənilərin təcavüzkarlığı bir çox alimlərin, o cümlədən Strabonun da diqqətindən yayınmamışdır. O, əvvəllər kiçik bir ölkə olan Ermənistanın işğalçı müharibələr hesabına böyüdüyü faktını elmi dəlillərlə öz əsərlərində qeyd etmişdir.

Ermənilər işğal etdikləri ərazilərdə bir qayda olaraq o xalqın mədəniyyət abidələrini ya yox edir, ya da "qazıntılar" apararaq əsil yazıları dəyişir və erməniləşdirir. Bu haqda məşhur gürcü şairi İlya Çavçavadze də yazmışdı: "Ermənilər tərəfindən gürcü kilsələrində gürcü yazılarının pozulması, tikinti daşlarının çıxarılıb əvəzinə erməni yazıları olan daşların qoyulması haqda sübut olunmuş bir çox faktlar var".

Tanınmış rus tarixçi-alimi V.Veliçkonun kitabında da ermənilərin gürcü və alban abidələrində əsil yazıların pozulması və dəyişdirilərək mənimsənilməsi faktları verilir. O yazır ki, erməni himayədarları Ermənistanın yeni tarixini yazmaq və kiçik xalqını yüksəltmək üçün öz tarixi nailiyyətlərini şişirdib yüksəklərə qaldıraraq, qonşu xalqların daha zəngin tarixinə kölgə salmaq istəyirlər.

Köhnə tarix bu gün də təkrar olunur. Təkcə Şuşa şəhərindəki 199 memarlıq abidəsindən çoxu, o cümlədən Yuxarı və Aşağı

Gövhər Ağa məscidləri, Saatlı məscidi, böyük Azərbaycan şairi M.P.Vaqifin məqbərəsi, XVIII-XIX əsrlərə aid yaşayış evləri və s. abidələr dağıdılmışdır. 1992-ci ilin may ayında işğal olunmuş Şuşa şəhərinə ermənilər köçürülmüş və tarixi keçmişimizin erməniləşməsi davam etdirilir. İşğala qədər bu şəhərin əhalisinin 95 faizini azərbaycanlılar təşkil edirdi.

Tunc dövrünə aid Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin ən xarakterik arealı olan Xocalı şəhərində ermənilər sovet ordusunun 366-cı alayı ilə birgə misli görünməmiş vəhşiliklər törətmişlər. Bir gecənin içində şəhər yerlə-yeksan edilərək xəritədən silinmişdir.

Yaxın və Orta Şərqin ən qədim insan məskənlərindən biri olan Azıx və Tağlar mağaraları, Aquen məbədi, Qandzasar monastrı, Qaraköpək, Üzərliktəpə və s. abidələr hərbi məqsədlər üçün istifadə edilir. Xocalıda Kurqan düzü, Ağdam, Ağdərə, Füzuli və Cəbrayıl rayonlarındakı kurqanlar talan edilmişdir. Şübhəsiz ki, zəbt edilmiş muzey fondlarından və qanunsuz arxeoloji qazıntılardan əldə edilmiş materiallar gələcəkdə Azərbaycan tarixinə və mədəniyyətinə qarşı çevriləcək. Başqa xalqların mədəniyyətləri bazasında özlərinə tarix yaradan ermənilər tərəfindən təqribi hesablamalara görə 300 minə yaxın xalça qarət olunmuşdur.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazisində 547 memarlıq abidəsi, o cümlədən 5 dünya, 393 ölkə və 149 yerli əhəmiyyətli memarlıq abidəsi, 205 arxeoloji abidə, 927 kitabxana, 808 klub müəssisəsi, 85 musiqi məktəbi, 12 monument, 22 muzey, 4 şəkil qalereyası, 10 mədəniyyət və istirahət parkı, 4 dövlət teatrı və 2 konsert müəssisəsi dağıdılmış, yandırılmış və ya qarət edilmişdir. Dünya əhəmiyyətli Kəlbəcər Tarix-diyarşünaslıq muzeyi, nadir eksponatlara malik Şuşa şəhəri, Qarabağın tarixi muzeyi, dünyada ikinci olan Ağdam çörək muzeyi, Zəngilandakı daş heykəllər muzeyi erməni vəhşiləri tərəfindən yerlə-yeksan edilmişdir.

Ümumdünya əhəmiyyətinə malik 40 minə yaxın qiymətli və XI-XIX əsrlərin nadir muzey əşyası, erməni təcavüzkarları tərəfindən işğal edilmiş ərazilərdəki muzeylərdən Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli eksponatlar, rəsm və heykəltəraşlıq əsərləri, dünya şöhrətli Azərbaycan xalçaları, dekorativ-tətbiqi sənət nümunələri, əlyazmalar, arxiv sənədləri, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları və digər qiymətli materiallar qarət edilmişdir.

Şuşa şəhərində dünya şöhrətli Üzeyir Hacıbəyovun, Bülbülün, Xan Şuşinskinin, Natəvanın ev-muzeyləri qarət olunmuş, bununla kifayətlənməyən ermənilər hər üç korifeyin heykəllərini güllləbaran etmişlər.

Ümumilikdə, işğal olunmuş ərazilərə dəyən zərər 6 milyard 71 milyon ABŞ dolları həcmindədir. Mənəvi zərərin həcmini isə hazırda mövcud olan heç bir ölçü meyarı ilə təyin etmək mümkün deyildir.

Ermənilər bununla kifayətlənməyərək milli musiqimizə, mətbəximizə də sahib çıxmağa başlayıblar. Çünki erməni azğınlığının qarşısı vaxtında alınmayıb. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında BMT-nin 822 (30 aprel 1993), 853 (29 iyul 1993), 874 (14 oktyabr 1993), 884 (11 noyabr 1993) nömrəli qətnamələrində və Avropa Şurasının 1416 saylı bəyannaməsində Azərbaycanın Şuşa şəhəri də daxil olmaqla 20 faiz ərazisinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı, separatçı qüvvələrin hələ də bu regionu nəzarət altında saxladığı faktı təsdiq olunub.

Hər bir xalqın mədəni irsi bəşəriyyətin nailiyyətidir və bu irsi qorumaq bəşəriyyətin ali vəzifəsidir. Bu məqsədlə bir sıra beynəlxalq hüquqi aktlar, konvensiyalar qəbul olunmuşdur. "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, "Arxeoloji abidələrin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası, "Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin

qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" 1970-ci il Paris Konvensiyası, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il Paris Konvensiyası və s. beynəlxalq konvensiyalara Azərbaycan da qoşulmuş və bu qanunlardan irəli gələn müddəalara həmişə əməl edir. Ermənistan da bu konvensiyalara qoşulmuşdur, ancaq beynəlxalq qanunları kobudcasına pozur, heç bir hüquqi normalara məhəl qoymayaraq Azərbaycan abidələrini dağıdır, torpaqlarını, meşələrini yandırır. XXI əsrdə bütün bəşəriyyətin gözü qarşısında bu cür özbaşınalıq hökm sürür və təəssüf ki, dünya susur. Damarında azərbaycanlı qanı axan hər kəs isə susmamalı, bu haqda ciddi düşünməli, əlindən gələni əsirgəməməlidir. Bu bir həqiqətdir ki, dağılmış kəndləri, şəhərləri bərpa etmək, maddi ziyanı ödəmək olar, amma itirilmiş mədəniyyəti, yaralanmış mənəviyyatı qaytarmaq, sağaltmaq mümkün olmur. Haqq səsimizi dünyaya car çəkərək milli-mənəvi dəyərlərimizə sahib çıxmalıyıq.

## *GƏLİN UNUTMAYAQ*

***XX əsrin ən böyük faciəsi olan Xocalı qırğını zamanı:***

- 613 nəfər şəhid olub;
  Onlardan 106 nəfəri qadındır;
  59 nəfəri 1 yaşından 18 yaşına qədər yeniyetmələrdir;
  70 nəfəri ahıldır;
- 23 nəfər uşaq ata və anasız qalmışdır;
- 230 nəfər uşaq valideynlərindən birini itirmişdir;
- 487 nəfər əlil olmuşdur;
- 150 nəfər itkin düşmüşdür, hələ də onlardan bir xəbər yoxdur;
  1275 nəfər əsir düşmüşdür və onların taleləri naməlumdur.

***İşğal olunmuş ərazilərimiz:***

- Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə): İşğal tarixi-1988-1994-cü illər (ərazisi: 4400 kv.km).
- Laçın (18 may 1992-ci il) - ərazisi 1835 kv.km.
- Kəlbəcər (2 aprel 1993-cü il) - ərazisi 1936 kv.km.
- Ağdam (23 iyul 1993-cü il) - ərazisi 1094 kv.km.
- Cəbrayıl (23 avqust 1993-cü il) - ərazisi 1050 kv.km.
- Füzuli (23 avqust 1993-cü il) - ərazisi 1386 kv.km.
- Qubadlı (31 avqust 1993-cü il) - ərazisi 802 kv.km.
- Zəngilan ( 29 oktyabr 1993-cü il) -ərazisi 707 kv.km

## *Görkəmli şəxsiyyətlər Qarabağ haqqında*

Xalqımızın çox qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid olublar. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, vətəninə sədaqətliliyinin nümunəsidir, ikinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır – vəhşiliyin görünməmiş təzahürüdür.

**Heydər Əliyev,**
ümummilli lider
Xalq qəzeti, 26 fevral 2002-ci il

Şəhidlərin xatirəsinə qoyulan ən böyük abidə müstəqil Azərbaycan dövlətidir.

**Heydər Əliyev,**
ümummilli lider
Xalq qəzeti, 26 fevral 2002-ci il

Azərbaycan öz torpaqlarını qaytarmaq və müdafiə etmək qüdrətinə malikdir.

**İlham Əliyev,**
Azərbaycan Respublikasının
Prezidenti
Xalq qəzeti, 27 fevral 2006-cı il

İşğal olunmuş Azərbaycan torpaqları haqqında söhbət gedəndə Ermənistan hökuməti bilməlidir ki, heç bir güzəştə yol verilməyəcək.

**İlham Əliyev,**
Azərbaycan Respublikasının
Prezidenti
Xalq qəzeti, 15 fevral 2005-cı il

Azərbaycan! Mayası nur, qayəsi nur ki,
Hər daşından alov dilli ox ola bilər!
Azərbaycan – deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər!

**Məmməd Araz,**
Xalq şairi

Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan ola bilməz.

**Vasif Adıgözəlov,**
Xalq artisti, bəstəkar

Biz müsəlmanlar bu halətdə davam etməyəcəyik və aşkar deyirik ki, hərgah işlər belə gedərsə, nə qədər Qafqazda erməni terror dəstələri hökm edərsə, Qafqazda asayiş bərpa olunmayacaqdır.

**Əhməd bəy Ağayev,**
XX əsrin ictimai-siyasi xadimi

Xocalı hadisəsi Hitler faşizminin Xatın kəndində törətdiyi müsibətlə müqayisədə daha dəhşətli idi. Ermənilər bu qəddar terror aktı ilə öz vəhşiliklərini bütün dünyaya bəyan etdilər.

**Yuri Pompeyev,**
yazıçı-jurnalist

Dağlıq Qarabağın yamaclarında aralarında qadın və uşaq olan çoxlu meyit aşkar olunub. Bu isə erməni qoşunları tərəfindən azərbaycanlı qaçqınların qırılması haqda məlumatları təsdiqləyir. Meyitlərin çoxu tanınmaz hala düşüb. Balaca bir qızcığazın isə yalnız başı qalıb.

**Anatoli Levin,**
jurnalist

Mən aşiqəm Qarabağ,
Qara salxım, qara bağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

**Ağabəyim Ağa,**
Qarabağ xanının qızı

# “YADDAN ÇIXMAZ QARABAĞ” MÖVZUSU İLƏ BAĞLI KİTABXANALARDA KEÇİRİLMƏSİ NƏZƏRDƏ TUTULAN TƏDBİRLƏR

Ərazisi işğal olunmuş bir ölkədə mənəvi, ideoloji tərbiyə ən kəsərli silaha çevrilir. Bəzən siyasətçilərin iti dilinin anlada bilmədiyini mədəniyyətin zərif dili çox gözəl anladır. Torpaqları işğal olunmuş, hərb meydanına çevrilmiş Azərbaycanın uşaqdan böyüyə kimi hər bir vətəndaşı səfərbər olmalı, bunları unutmamalıdır. Mübarizə yolları, silahlar müxtəlif olsa da, məqsəd birdir: Azərbaycanın baş tacı, mədəniyyət beşiyi Qarabağı mənfur düşmənlərin murdar caynağından qurtarmaq. Bu mübarizənin ön sıralarında ölkə kitabxanaçılarının da yeri və payı vardır.

Məlumdur ki, kitabxanalardan istifadə edən oxucuların böyük hissəsini gənclər təşkil edir. Deməli, kitabxanaçıların gənclərlə işləmək, onlarda vətənpərvərlik duyğularını, milli mənlik hissini oyatmaq, inkişaf etdirmək imkanları böyükdür. İndiki zamanda bu ən önəmli məsələlərdən biridir. Kitabxanaçılar həmin vəzifənin öhdəsindən gəlmək üçün həm ənənəvi, həm də dövrün, zamanın tələbindən irəli gələn bir sıra başqa tədbirlərdən istifadə etməlidirlər. Unutmaq lazım deyil ki, müharibədə qalib gəlmək üçün təkcə vətənə məhəbbət kifayət etmir, bu məhəbbətlə yanaşı düşmənə nifrət hissi də olmalıdır. Çox təəssüf ki, bəzən işğal altında olan rayonlarımızın adını və işğal tarixini bilməyənlər də tapılır. Buna görə də bütün kitabxanaların görkəmli yerində, daxil olan hər bir kəsin görə biləcəyi hissədə “Qarabağı unutma”, “Əsir torpaqları unutma” “Əsir torpaqlar bizi çağırır”, “Şəhidlərin ruhu narahatdır” və s. başlıqlar altında bu rayonların adı, işğal tarixi cəlbedici şəkildə yazılmalıdır.

Hər bir kütləvi tədbir Qarabağ tarixinin, ədəbi-bədii mühitinin, erməni siyasətçilərinin fitnəkar əməllərinin araşdırılması haqqında konkret təsəvvür yaradır, onları həmin məsələlərin

aydınlaşdırılmasında gedən müzakirələrin iştirakçısına çevirir, bununla bağlı mövcud ədəbiyyatla tanış edir.

MKS-də Qarabağ tarixinin, onun elmi mədəni və bədii mühitinin işıqlandırılması üçün təşkil edilən mədəni-kütləvi işlərin səviyyəsi daha da artırılmalıdır. Çünki indi onun məzmunu daha çox mənəvi tərbiyənin başlıca məsələlərinə - vətənpərvərlik, mərdlik, mübarizlik, torpaq sevgisi, vətənin müdafiəsinə hər zaman hazır olmaq və s. anlayışları əhatə edir. Eyni zamanda nəzərdə tutulan tədbirlərdə ərazimizə soxulmuş erməni quldur-larına qarşı nifrət hissi də daha qabarıq özünü biruzə verməlidir. Ona görə də “Yaddan çıxmaz Qarabağ” mövzusunda keçirilməsi nəzərdə tutulan tədbirlərdə kitabxanaçıların ən ali vəzifələrindən biri, insanın öz vətəninə, xalqına, döğma torpağa, tarixi soykökünə olan dərin məhəbbətini aşılamaqdan ibarət olmalıdır. Bu dərin və ali hisslərin, Qarabağ haqqında düzgün informasiyaların vaxtında və dolğun formada oxuculara çatdırılması üçün kitabxanalarda kitab sərgiləri, plakatlar, mövzu və ölkəşünaslıq kartotekaları, hərbi şərəf guşələri, foto - montajlar tərtib etmək, ədəbi-bədii kompozisiyalar, kitab müzakirələri, ucadan oxu, söhbətlər, anım mərasimləri, oxucu konfransları keçirmək olduqca vacibdir.

Qarabağ mövzusunda istifadə olunan ən effektiv və təsirli tədbir forması kitab sərgiləri olmalıdır. “Yaddan çıxmaz Qarabağ” adlı kitab sərgisinin daimi fəaliyyət göstərməsi daha məqsədəmüvafiq olardı. Yalnız bu sərgidə mütəmadi olaraq ədəbiyyat yeniləşməlidir. Ayrı-ayrı bölgələrin, rayonların işğal günləri və müvafiq anım mərasimləri keçirilərkən bu sərgiləri dəyişdirmək olar, yaxud da imkan daxilində onlara əlavə sərgilər təşkil etmək olar.

Müvafiq mövzu ilə əlaqədar tədbirlər keçirərkən ərazidə məskunlaşan məcburi köçkün və qaçqınların nümayəndələrini də dəvət etmək olar. Onların şahidi olduqları hadisələr barədə danışmaları oxucular, tədbir iştirakçıları üçün çox maraqlı və təsiredici ola bilər.

Müvafiq rayondan olan milli qəhrəmanların anım günlərinin keçirilməsi də ən vacib tədbirlərdəndir. Bu tədbirin onların bir vaxtlar təhsil aldıqları məktəblərdə, yaxud da həmin məktəblə birlikdə kitabxanada keçirilməsi daha əhəmiyyətli olar. Bu zaman hərbi komissarlıqların nümayəndələrini, milli qəhrəmanın valideynlərini, qohumlarını da həmin tədbirə dəvət etmək və onların xatirələrini dinləmək çox təsirli olar. Belə tədbirləri yaxınlıqda yerləşən hərbi hissədə keçirmək əsgərlərin döyüş ruhunun daha da yüksəlməsinə səbəb ola bilər.

Qarabağa aid silsilə tədbirlər keçirərkən kitabxanalar İnternetin imkanlarından da istifadə etməlidirlər. Texniki imkanı olan kitabxanalarda mövzuya dair saytlardan fraqmentlər, əyani materiallar monitor vasitəsilə iştirakçılar qarşısında nümayiş oluna bilər.

Qarabağla bağlı hər hansı bir tədbirin keçirilməsi üçün kitabxanaçılar ilk növbədə kitab fondunun komplektləşdirilməsinə, ölkəşünaslıq və müxtəlif mövzu kartotekalarının tərtib edilməsinə böyük önəm verməlidirlər. Məsələn, kitabxananın "Azərbaycanın milli qəhrəmanları", "Qəhrəmanlar xalqın ürəyindədir", "Qarabağın qara dərdi bədii ədəbiyyatda" mövzularında tərtib etdiyi mövzu kartotekaları oxucuları xalqımızın qəhrəman oğulları, onlar haqqında yazılmış əsərlər və bədii ədəbiyyat nümunələri ilə tanış edir.

Kitabxananın kataloq və kartotekalarında "Qarabağ hadisələri", "Qarabağ mövzusu", "Yaddan çıxmaz Qarabağ" başlıqlı ayrıclar altında müvafiq ədəbiyyatı ayrıca göstərmək olar.

Burada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı İnternet linklərinə, elektron resurslara, saytlara da isnad vermək vacibdir. Yarım bölmələrdə ayrı-ayrı rayonların işğalı və onların tarixi barədə materialları da qruplaşdırmaq olar.

Kitabxanalar Qarabağ mövzusu haqqında kifayət qədər elmi və tarixi materiallara malik olduğundan nəzərdə tutulan hər bir tədbir də çox aktual və zəngin olmalıdır. Məsələn, "Erməni icmasının Qarabağa gəlməsi tarixi", "Ermənilərin İrandan

Azərbaycana köçürülməsi”, “Ermənilərin xaricdə yaşayan lobbisinin Qarabağ münaqişəsinə rəhbərliyi”, “Erməni muğamları” (“Армянские мугамы”, Москва, изд. “Искусство”, 1988) kitabının tənqidinə dair müzakirələr və s. mövzularda məruzələr, söhbətlər, kitab müzakirələrinin keçirilməsi məqsədəuyğundur. Bu mövzular əsasında həyata keçirilən tədbirlərdə oxucular Qarabağ haqqında onlara məlum olmayan bir sıra vacib məlumatlara yiyələnərlər. Əsil həqiqət onların gözünü açar, gənc nəsil öz millətinin keçdiyi ziddiyyətli həyat yolu ilə yaxından tanış olmaq imkanını qazanar. Məsələn, hələ ötən əsrin ilk illərində İrandan Qarabağa köçürülən erməni icmasının Xankəndində yerləşdirilməsi, onlara sığınacaq verilməsi faktları bir tərəfdən yeniyetmələrdə öz xalqının humanist mövqelərinə qarşı məhəbbət hissi oyadarsa, digər tərəfdən erməni millətçilərinin Qarabağa sahib çıxıb onu zəbt etməsi faktları bu millətə qarşı onlarda qəzəb hissinin coşmasına səbəb olar.

Bədii ədəbiyyatın təbliği kitabxanalarda daha çox yayılmış ədəbi-bədii gecələr vasitəsilə də həyata keçirilir. “Qalx ayağa, Azərbaycan” mövzusunda ədəbi-bədii gecə təşkil etməklə kitabxanaçılar Qarabağın qəhrəman oğul və qızları haqqında yazılmış bədii ədəbiyyat nümunələrini oxuculara çatdırmaq, onların bədii zövqlərinin formalaşmasına müsbət təsir göstərmək imkanını qazanarlar.

Ədəbi-bədii gecələr və oxucu konfransları keçirərkən kitabxanaçılar Yazıçılar Birliyinin yerli şöbələrinin də gücündən istifadə etməlidirlər. Yerli yazıçıların iştirakı ilə keçirilən belə tədbirlər daha maraqlı məzmunlu ola bilər. Onlar öz şeirlərini oxuyar, çıxışlar edə bilərlər. Orada məktəblərin nəzdində fəaliyyət göstərən ədəbi dərnəklərin gücündən də istifadə etmək olar. Bu cür tədbirləri mədəniyyət evləri ilə onların nəzdində fəaliyyət göstərən dram dərnəklərinin iştirakı ilə keçirmək daha maraqlı olardı.

Hər bir rayonun işğal olunduğu gün anım mərasimləri keçirmək, bu mərasimlərə Qarabağ döyüşçülərini, hadisələrin şahidlərini, bu mövzuda yazan yazarları, rayonun ziyalılarını dəvət

etmək olar. Kitabxanaçılar bu tədbirlərdə məktəbli gənclərin əməyindən maksimum bəhrələnməlidirlər. Təbii ki, belə mərasimlərdə hadisələri işıqlandıran foto-stendlərin, kitab sərgisinin tərtib edilməsi daha yaxşı olardı. Sərgi üçün düşündürücü və təsiredici başlıqlar seçmək lazımdır. "Əsrə sığmayan faciə", "Tariximizin qan yaddaşı", "Əsir yurdlar bizi çağırır", "Yaralı torpaqlar bizi gözləyir", "Tarixin qanlı səhifəsi", "Qarabağım, qəm ocağım", "Qarabağda talan var" və s.

Qarabağın görkəmli şəxsiyyətləri, sənətkarları və Qarabağ mövzusunda yazan şair və yazıçılarla görüşlər keçirmək lazımdır. "Qarabağ müharibəsi bədii ədəbiyyatda", "Qarabağ ağrısı ilə yazılan əsərlər", "Mədəniyyətimizin, musiqimizin beşiyi Qarabağ" adı altında görüşlər, gecələr və ya bu mövzuda yazılmış bir əsərin müzakirəsini keçirmək (əlbəttə gəncləri cəlb etmək şərtilə) faydalı ola bilər. Rayonun mədəniyyət işçilərinin köməyindən istifadə etməklə ədəbi-bədii gecələr təşkil etmək olar.

Elə bir rayon, bölgə yoxdur ki, Milli qəhrəmanı, şəhidi olmasın. Hər bir kitabxana öz həmyerlisi olan Milli qəhrəmanın adına guşə yarada bilər. Bu guşədə onun həyatına, döyüş fəaliyyətinə aid materiallar toplanmalıdır. Guşəyə "Vətən uğrunda tökülən qan yerdə qalmaz", "Qəhrəmanlar gənclərə örnəkdir", "Qəhrəmanlar unudulmur" və s. adları vermək olar. Qəhrəmanın doğum və ölüm günlərində yaxınları, dostları, döyüş yoldaşları ilə birgə anım mərasimləri keçirmək olar. Şəhid anaları, övladları, həyat yoldaşları ilə gənclərin görüşünü mütəmadi keçirmək, bu ailələrlə onların ünsiyyətini, təmasını yaratmaq da vacib məsələlərdəndir. Çünki bəzən mənəvi dayağa, təsəlliyə daha çox ehtiyac duyulur, bunu hər kəs verə bilər və verməlidir.

Qarabağın tarixi, mədəniyyəti, təbiəti zəngin olduğu qədər dərdi, qəmi də çoxdur. Təəssüf ki, ilin elə bir fəsli, ayı yoxdur ki, Qarabağ ağrılarıyla, dərdləriylə ötüşməsin. Nə qədər ki, Qarabağ azad olunmayıb, bu qəmli tarixləri qeyd eləyib böyüməkdə olan nəslin diqqətinə çatdırmaq hər bir kəsin, xüsusilə də kitabxanaçıların müqəddəs vətəndaşlıq borcudur.

Məsələn, Qarabağın nadir incisi Şuşa şəhərinin işğalının ildönümü münasibətilə anım mərasimi keçirmək istəyən kitabxana əməkdaşları aşağıdakı işlərin görülməsini planlaşdırmalıdırlar.

Hazırlıq işləri müzakirə olunmalı və əlaqədar təşkilatlarla razılaşdırılmalıdır. Mərasimin günü, vaxtı, yeri dəqiqləşdirildikdən sonra dəvət olunacaq adamların siyahısı tutulmalıdır. Buraya tarixçi alimlər, ziyalılar, Şuşanın yetirməsi olan tanınmış şəxslər, Şuşa haqqında yazmış yazıçı və şairlər, Şuşa uğrunda döyüşdə iştirak etmiş döyüşçülər, bu döyüşlərdə həlak olmuş şəhid ailələri dəvət oluna bilər. Tədbirə ərazidə məskunlaşan Şuşa qaçqınlarını da dəvət etmək olar.

Məruzə və çıxış edəcək şəxslər müəyyənləşdirilməli və qabaqcadan xəbərdar edilməlidir. Məruzənin mövzusu Şuşanın tarixi, bu günü, gələcəyi ilə bağlı olmalıdır. Məsələn, "Qarabağ Azərbaycanın tacı, Şuşa isə bu tacın ən qiymətli incisidir", "Şuşanın işğalının əsas səbəbləri və xilasına aparan yollar", "Şuşa heç vaxt yadlara verilməyib və verilməməlidir" və s.

Anım mərasiminin planında konkret olaraq müzakirəyə çıxarılan mövzu üçün ədəbiyyatın seçilməsi, çıxış etmək arzusunda olan oxuculara kömək məqsədilə təxmini sualların tərtib edilməsi, əsas məruzəçinin təyin edilməsi, anım mərasimi haqqında oxuculara vaxtında məlumat verilməsi və s. tədbirlər nəzərdə tutula bilər.

Qarabağla bağlı nəzərdə tutulan böyük tədbirlər mütləq kitab sərgiləri, foto-stendlər və foto-albomlar kimi əyani təbliğat vasitələrilə tamamlanmalıdır. Belə sərgilərin təşkil edilməsi keçirilən tədbirlərin daha da təsirli olmasına maksimum köməklik göstərir. Kitab sərgilərini bir neçə bölmələr üzrə də tərtib etmək olar. Bu bölmələr sitat, ədəbiyyat, dövri mətbuat və foto şəkilli materiallarla təmin edilməlidir. Kitab sərgilərini təşkil edərkən Qarabağın tarixini, mədəniyyətini, maddi və mənəvi irsini, erməni cəlladlarının törətdikləri vəhşilikləri, onların məkrli siyasətini ifşa edən əsərlər, şəhidlərin və erməni işğalçılarına qarşı mübarizədə mərdlik, igidlik göstərmiş qəhrəman övladlarımızın bədii obrazlarla əks olunmuş kitabların diqqətlə seçilməsi vacib məsələlərdəndir.

“Vətən uğrunda ölən varsa Vətəndir”, “Qəhrəmanların həyatı əbədidir”, “Könlüm keçir Qarabağdan” və s. başlıqlar altında kitab sərgiləri, foto-stendlər nümayiş etdirmək məsləhətdir.

İndi isə nümunə üçün Şuşanın işğalının ildönümü münasibətilə keçirilməsi nəzərdə tutulan anım mərasiminin təxmini proqramını veririk:

a) Giriş
b) Əsas məruzə
c) Çıxışlar
d) Bədii hissə

Mərasim Dövlət Himni səsləndirilməklə və ya oxunmaqla açıldıqdan sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilir. Sonra isə kitabxanaçı giriş sözü ilə tədbiri açır. Burada tədbirin keçirilmə məqsədi, onun əhəmiyyəti, əlaqəli təşkilatlarla birgə keçirilməsindən danışılır, dəvət olunanlar iştirakçılara təqdim olunur, tədbirin aparılma qaydası izah olunur. Daha sonra əsas məruzəçiyə söz verilir və axırda məruzə ətrafında çıxışlar olur.

Bədii hissədə Şuşaya həsr edilmiş şeirlərdən parçalar, qəmli notlar üzərində köklənmiş mahnılar, həvəskar aktyorların iştirakı ilə səhnəciklər göstərmək olar. Bununla tədbir tamamlanır.

Mərasim keçiriləcək zalda Şuşanın tarixi, mədəniyyəti, yetirdiyi şəxsiyyətlər haqqında yazılmış kitab, qəzet və jurnal materiallarından ibarət sərgi təşkil etmək vacibdir. Sərgiyə “Şuşasız illər”, “Şuşanın işğalından 15 il keçir”, “Şuşa həsrəti” və s. adları vermək olar. Sərgini mövzu ilə bağlı şəkillər, plakatlar, Şuşa haqqında deyilmiş gözəl kəlamlar bəzəməlidir.

Bu münasibətlə tərtib olunacaq sərginin nümunəsini veririk:




1. **Başlıq.** “Şuşa həsrəti”.
2. **Sitat.** “Qarabağsız, Şuşasız Azərbaycanı təsəvvür etmirəm” **Heydər Əliyev, ümummilli lider**
3. **Şuşanın təsviri verilmiş şəkil**.

4. **Şuşaya aid şeirlərdən bir neçə bənd**:

Şuşanı qar gördüm, qar gördüm,
Elimi var gördüm, var gördüm.
Səslədim ötən günləri,
Daşları kar gördüm, kar gördüm

**S.Məmmədzadə,**
şair
"Şuşanı qar gördüm", Bakı, 2006.

İllər bir-birini çəkib aparır,
Ah ilə ötüşür ömür Şuşasız.
Hər il ümidimdən bir tel qoparır,
Arzumun çiçəyi solur Şuşasız.

**Xuraman,**
şair-publisist
"Qarabağım, qəm ocagım", Bakı, 2006.


5. **Abdullayev Ə**. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Heydər Əliyevin sülh strategiyası.- B.: Elm, 1999.- 156 s.
6. **Dağlıq Qarabağ həqiqətləri** /Elmi red.: tarix e.d., prof., İ.X.Zeynalov.- B.: Renessans, 2005.- 139 s.
7. **Dağlıq Qarabağ**: Hadisələrin xronikası (1988-1994-cü illər).- B.: Vətən, 2005.- 106 s.
8. **Ermənilərin Dağlıq Qarabağla** bağlı iddialarının heç bir hüquqi əsası yoxdur.- B.: Çaşıoğlu, 2005.- 22 s.

9. **Əhmədov Y.** Torpağa tökülən qan: [Roman] /Red.: prof. A.Məhərrəmov, İncəsənət e.n. R.Heydər, A.Qüdrətoğlu.- B.: Azərnəşr, 2004.- 451 s.
10. **Əsgərov B**. Azərbaycanın Milli Qəhrəmanları.- B.: Resp. Xat. Kit. Red., 2005.- 253 s.
11. **Həsənov T**. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının sosial-iqtisadi nəticələri: Elmi populyar vəsait /Elmi red.: prof. A.M.Quliyev.- B.: Çaşıoğlu, 2002.- 116 s.
12. **Xuraman.** Qarabağım, qəm ocağım.- B.: Nağıl evi, 2004.- 107 s.
13. **Quliyev V.** Şuşada erməni-müsəlman davası. Erməni-müsəlman qırğınının 100 illiyi //Şuşa.- 2006.- № 7.- S.4-5.
14. **Mahmudov Y., Şükürov K**. Qarabağ: Real tarix, faktlar, sənədlər /İng. Dilinə tərc: B.Hacıyev; Bədii red.: A.Ələkbərov.- B.: Təhsil, 2005.- 377 s.
15. **Seyidbəyli E**. Qarabağ torpaq mülkiyyətinə aid arxeoqrafik materiallar. Gövhər ağa Cavanşirin sənədləri /Elmi red.: Tahirə Həsənzadə.- B.: Nurlan, 2002.- 144 s.
16. **Səma M.** Qarabağdan keçən yol: [Şeirlər, hekayələr].- B.: Adiloğlu, 2005.- 159 s.

17. **Qarabağa dair veb resursların siyahısı**:

1. www.savash-az.Swisshost.dy/qarabag/rishon.htm
2. azlink.info
3. http://gallery.azlink.info
4. www.karabakh.co.uk
5. turan-eli.com/qarabag.htm
6. akif-sahverdiyev.page.ti/qarabag.htm
7. www.abadazerbaycan.org/dosye/qarabag.php
8. www.karabakh.com
9. www.virtualazerbaijan

# ƏDƏBİYYAT SİYAHISI

## VEB RESURSLAR:


10. www.savash-az.Swisshost.dy/qarabag/rishon.htm
11. azlink.info
12. http://gallery.azlink.info
13. www.karabakh.co.uk
14. turan-eli.com/qarabag.htm
15. akif-sahverdiyev.page.ti/qarabag.htm
16. www.abadazerbaycan.org/dosye/qarabag.php
17. www.karabakh.com
18. www.virtualazerbaijan


## KİTABLAR


1. **Abbasoğlu B**. Qəhrəmanlıq zirvəsinin fatehi: (Azərbaycanın Milli Qəhrəmanı, polkovnik-leytenant Şirin Mirzəyev haqqında).- B.: Şuşa, 2006.- 159 s.
2. **Abbasoğlu B**. Ölərkən dünyaya gələn oğullar: (Qarabağ müharibəsində "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüş 15 nəfər döyüşçü haqqında).- B.: Şuşa, 2004.- 246 s.
3. **Abdallı H.** Azərbaycan, dünya birliyi və Qarabağ problemi /Elmi red.: politoloq H.Dayızadə.- B.: Yeni Nəsil, 2003.- 129 s.
4. **Abdullayev E**. Dağlıq Qarabağ problemi: beynəlxalq hüquq müstəvisində.- B.: Təhsil, 2004.-215 s.
5. **Abdullayev Ə.** Azərbaycana qarşı erməni təcavüzü və xarici havadarlıq: Monoqrafiya /Elmi red.: F.e.d., prof. M.F.Cəlilov.- B.: İqtisad Universiteti, 2004.- 214 s.
6. **Abdullayev Ə.** Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Heydər Əliyevin sülh strategiyası.- B.: Elm,

1999.- 156 s.
7. **Acı həqiqətlər:** (Qarabağ hadisələrinə dair məqalələr).- B., 1991.
8. **Axundov Ə.** İkinci Xocalı.- B.: Şuşa, 2004.- 118 s.
9. **Aslanxanlı M**. Ad günləri qarşıdadır: (Qarabağ şəhidlərinə həsr olunmuş poemalar və şeirlər).- B.: Səda, 2006.- 186 s.
10. **Aşırlı A.** Türkün Xocalı soyqırımı.- B.: Nurlan, 2005.- 152 s.
11. **Azayev Ə.** Əsgər anası: (Povest).- B.: Gənclik, 2000.- 175 s.
12. **Cəfərova Ş.** Qarabağ müharibəsi müasir poeziyada /Elmi red.: prof. filol. e.d. C.Abdullayev.- B.: Təfəkkür NPM, 2002.- 71 s.
13. **Dağlıq Qarabağ: Hadisələrin xronikası** (1988-1994-cü illər).- B.: Vətən, 2005.- 106 s.
14. **Ermənilərin** Dağlıq Qarabağla bağlı iddialarının heç bir hüquqi əsası yoxdur.- B.: Çaşıoglu, 2005.- 22 s.
15. **Əbdülsəlimzadə T.** Qanlı yanvardan 15 il keçdi...- B.: Şirvannəşr, 2005.- 176 s.
16. **Əfəndiyev S.** Ermənilər kimdir? Gürcülər kim? Bəs biz kimik? (Sənədli povest).- B.: Sabah, 2006.- 106 s.
17. **Əhmədov Y.** Topxana meşəsində görüş: [Hekayələr] /Red.: H.Əbdülhəlimov.- B.: Planet-Press, 2006.- 423 s.
18. **Əhmədov Y.** Torpağa tökülən qan: [Roman] /Red.: prof. A.Məhərrəmov, İncəsənət e.n. R.Heydər, A.Qüdrətoğlu.- B.: Azərnəşr, 2004.- 451 s.
19. **Əliyev C.**, **Budaqov B.** Türklər, azərbaycanlılar, ermənilər: Tarixi həqiqətin soyqırımı.- B.: Azərbaycan, 2003.- 72 s.
20. **Əliyev H.** Dağlıq Qarabağ həqiqətləri /Elmi red.: tarix e.d., prof., İ.X.Zeynalov.- B.: Renessans, 2005.- 139 s.
21. **Əsgərov B.** Azərbaycanın Milli Qəhrəmanları.- B.: Resp. Xat. Kit. red., 2005.- 253 s.
22. **Gəncə-Qarabağ** əyalətinin müfəssəl dəftəri.- B.: Şuşa, 2000.- 575 s.
23. **Hacıyev H.** Dağlıq Qarabağın tarixindən sənədlər /Red.: S.Xəlilova.- B.: Gənclik, 2005.-190 s., şək.

24. **Hacıyeva F.** Bağışla, vətən, bağışla.- B.: Adiloğlu.- 2004.- 218 s.
25. **Həsənov T.** Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının ağır sosial-iqtisadi nəticələri: Elmi populyar vəsait /Elmi red.: prof. A.M.Quliyev.- B.: Çaşıoğlu, 2002.- 116 s.
26. **Hüseynoğlu S.** Yurdundan, elindən aralı qaçqın...- B.: Təfəkkür NPM, 2002.- 46 s.
27. **Xəlilli X.** Qarabağ: Etnomənəvi inkişaf tarixi: Ən qədim dövrdən 1920-ci ilə qədər.- B.: Günəş, 2006.- 79 s.
28. **Xəlilzadə F.** İgidliyin son zirvəsi.- B., Nurlan, 2001.- 74 s.
29. **Xınalı Z.** Qarabağı unutma: [Hərbi vətənpərvərlik mahnıları və marşları] /Red.: filol. e.n. T.Abbaslı.- B.: Adiloğlu, 2006.- 51 s.
30. **Xuraman.** Könlüm Qarabağdadı.- B.: Nərgiz, 2006.- 48 s.
31. **Xuraman.** Qarabağım, qəm ocağım.- B.: Nağıl evi, 2004.- 107 s.
32. **İbayev V.** Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində /Elmi red.: Hüquq e.d. L.Hüseynov; AMEA İnsan Hüquqları İnstitutu.- B.: Elm, 2006.- 695 s.
33. **İbayev V.** Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi insan hüquqları kontekstində: (Tətbiq olunan hüquq və məsuliyyət məsələləri).- B.: Elm, 2001.- 241 s.
34. **İmanov R.** Qondarma Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranması tarixindən.- B., 2006.- 228 s.
35. **İsgəndərzadə E.** Müharibə adamı: (Mayor Azay Kərimov haqqında).- B, Şuşa, 1999.- 110 s.
36. **Köçərli T.** Qarabağ /Red.: O.S.Məmmədov; AMEA-nın İnsan Hüquqları İnstitutu.- B.: Elm, 2002.- 465 s.
37. **Qarabağ dünən, bu gün və sabah** 1-ci Ümumrespublika elmi-əməli konfransı. Tezislər /Red. heyəti Ə.Abbasov və b.- B.: Şuşa, 2002.- 191 s.
38. **Qarabağ dünən, bu gün və sabah** 2-ci Ümumrespublika elmi-əməli konfransı. Tezislər /Red. heyəti Ə.Abbasov və b.- B.: Şuşa, 2002.- 207 s.

39. **Qarabağ dünən, bu gün və sabah** 3-cü Ümumrespublika elmi-əməli konfransının materialları /Red. heyəti Ə.Abbasov və b.- B., 2004.- 295 s.
40. **Qarabağ dünən, bu gün və sabah** 4-cü Ümumrespublika elmi-əməli konfransının materialları /Red. heyəti Ə.Abbasov və b.- B., 2005.- 232 s.
41. **Qarabağ dünən, bu gün və sabah** 5-ci Ümumrespublika elmi-əməli konfransının materialları /Red. heyəti Ə.Abbasov və b.; Elmi red.: Q.Qarannı, N.Səməndər.- B., 2006.-251 s., şək.
42. **Qarabağ müzakirə** olunur /Humanitar Tədq. Cəm. Conciliation Resources; Tərt.: Əvəz Həsənov; Red.: F.Məmmədov və b.- B., 2006.- 324 s.
43. **Qarabağda talan var** /Tərt: Çingiz Tofiqoğlu.- B., 1996.- 147 s.
44. **Qarabağlı T.** Könlüm keçir Qarabağdan: [Şeirlər].- B.: Təfəkkür NPM, 2004.-139 s.
45. **Qarabağnamələr.**- B.: Yazıçı, 1989.- 1-ci cild.- 189 s.
46. **Qarabağnamələr.**- B.: Yazıçı, 1991.- 2-ci cild.- 478 s.
47. **Qədimli N.** Ürəklərdə göyərən dərd.- B.: Gənclik, 2000.- 170 s.
48. **Qəhrəman A.** Bağışla, Qarabağ, məni bağışla.- B.: Şuşa, 2002.- 160 s.
49. **Qırxqızlı Q.** Əsrin faciəsi – Xocalı.- B.: Şərq-Qərb, 1999.- 120 s.
50. **Mahmudov Y., Şükürov K.** Qarabağ: Real tarix, faktlar, sənədlər /İng. dilinə tərc: B.Hacıyev; Bədii red.: A.Ələkbərov.- B.: Təhsil, 2005.- 377 s., şək., xəritə.
51. **Mehdi Ə.** Qarabağın qara günü: [Şeirlər].- B.: Azərnəşr, 2001.- 187 s.
52. **Məhərrəmli Z.** Döyüşə qızlar gedir.- B.: Dünya, 1997.- 174 s.
53. **Məhərrəmov B.** Ölməzlik zirvəsi: (Qarabağ şəhidləri haqqında.).- B.: Təhsil, 2004.- 159 s.
54. **Məmmədova H.** Xocalı: Şəhidlər, Şahidlər.- B.: Yeni nəşrlər

evi, 2003.- 197 s.
55. **Mərzili A.** Biz əyilmədik.- B., 2003.- 538 s.
56. **Mir Cəfər.** Bərdə şəhidləri.-B.: Sabah, 2005.-257 s.
57. **Mirələmov H.** Xəcalət.- B.: Gənclik, 2002.- 240 s.
58. **Mirələmov H.** Vicdanın Cəzası.- B.: Nurlan NPM, 2005.- 270 s.
59. **Murad Əlövsət.** Ağır elin ağır dərdi: (Qarabağ şəhidləri haqqında.).-B.: Təfəkkür NPM, 2004.- 89 s.
60. **Salahzadə Ə.** Xocalı xəcilləri: (Poema).- B.: Şirvannəşr, 2006.- 48 s.
61. **Seyidbəyli E.** Qarabağ torpaq mülkiyyətinə aid arxeoqrafık materiallar. Gövhər ağa Cavanşirin sənədləri /Elmi red.: Tahirə Həsənzadə.- B.: Nurlan, 2002.- 144 s.
62. **Səma M.** Ana fəryadı.- B.: Adiloğlu, 2004.- 175 s., şək.
63. **Səma M.** Qarabağdan keçən yol: [Şeirlər].- B.: Adiloğlu, 2005.- 159 s.
64. **Səma M.** Nur sorağında: [Qarabağ müharibəsi haqqında] /Red.: Məleykə Səma.- B.: Adiloğlu, 2003.- 53 s.
65. **Səma M.** Vətən zəfər gözləyir: [Şeirlər və hekayələr].- B.: Adiloğlu, 2005.- 351 s., şək.
66. **Soyqırım analardan başlanır.-** B.: Vətən, 2003.-222 s.
67. **Şahhüseynov M.** Kəlbəcərsiz, zarsız keçən ömürlər.- B.: Şirvannəşr, 2003.- 100 s.
68. **Talıbov R.** Ermənilərin Dağlıq Qarabağla bağlı iddialarının heç bir hüquqi əsası yoxdur.- B.: Çaşıoğlu. 2005.- 22 s.
69. **Tənha T.** Erməni vəhşilikləri: [Poema] /Red.: Ş.Səlimbəyli.- B.: Avropa, 2005.- 182 s.
70. **Zeynalov Niyaz.** İki ay erməni əsirliyində.- B.: Azərnəşr, 2000.- 59 s.

## QƏZET VƏ JURNAL MATERİALLARI

**71.** "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 26 mart 1998-ci il //Xalq qəzeti.- 27 mart.- 1998.- S. 1.

**72. Əliyev H.Ə.** Biz öz taleyimizin və öz torpağımızın sahibi olmalıyıq //Azərbaycan.- 2001.- 7 fevral.

**73. Əliyev H.Ə.** Xocalı soyqırımının onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciət //Dirçəliş XXI əsr.- 2002.- № 48.- S. 9-11.

**74. Əliyev H.Ə.** 31 Mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciət //Azərbaycan.- 2002.- 27 mart.

**75. Əliyev İ.** Biz danışıqlar xatirinə danışıqlar aparmayacağıq //Xalq qəzeti.- 2005.- 15 fevral.- S. 1.

* * *

**76. Erik F., Dəmirli M.** İrəvan və başqa ölkələrin, xalqların hesabına "Böyük Ermənistan" yaratmaq siyasəti //Təfəkkür.- 2000.- № 1.- S. 16-18.

**77. Ermənilərin xalqımıza** və Vətənimizə vurduğu yaralar //Vəfa.- 2004.- № 6.- S. 15-16.

**78. Ermənistan-Azərbaycan** münaqişəsi Beynəlxalq təşkilatlarda //Diplomatiya aləmi.-2003.- № 2.- S. 115-125.

**79. Ermənistan-Azərbaycan** münaqişəsi mətbuatda //Diplomatiya aləmi.- 2005.- № 13.- S. 72-76.

**80. Quliyev V.** Şuşada erməni-müsəlman davası. Erməni-müsəlman qırğınının 100 illiyi //Şuşa.- 2006.- № 7.- S. 4-5.

**81. Məhərrəmov B.** Müharibənin 50 günü: Qarabağ: ağrı-acılarımızın salnaməsi //Azərbaycan.- 2000.- № 2.- S. 151-168.

**82. Novruzoğlu R.** Dağlıq Qarabağ ərazisində işğalçı erməni qoşunları //Dirçəliş-XXI əsr.-2006.- №102-103.- S. 89-92.

83. **Orxan V.** 20 fevraldan 26 fevraladək və ya Dağlıq Qarabağı necə itirməyə başladıq //Mədəni-Maarif.- 2007.- № 3.- S. 12-14.
84. **Tarixi mənbələr** və şəxsiyyətlər ermənilər haqqında nə demişlər? //Vəfa.- 2004.- № 6.- S. 11-12.
85. **Abbasbəyli A.** Erməni terror-separatizminin kökləri və nəticələri //Azərbaycan.- 2002.- 31 mart.-S.3.
86. **Abbasov İ.** Misli görünməmiş qəsd //Azərbaycan.- 2006.- 23 fevral.- S. 5
87. **Abdinov S.** Erməni vəhşiliyinin qanlı səhifəsi //Xalq.- 2006.- 24 fevral.- S. 6.
88. **Abdullayev E.** Özgə ərazilərinin işğalını qanunlaşdırmaq qeyri-mümkündür: Ermənistan-Azərbaycan //Azərbaycan.- 2002.- 27 mart.
89. **ABŞ ümid edir ki,** Azərbaycan və Ermənistan Dağlıq Qarabağa dair danışıqlarda tərəqqiyə nail olacaqlar //Azərbaycan.- 2006.- 2006.- S.l.
90. **ABŞ-da yaşayan** həmvətənimiz Dağlıq Qarabağ haqqında həqiqəti dünyaya yayır: [ABŞ-da yaşayan həmvətənimiz Feliks Sertsvadzenin Nyu-Yorkda rus dilində çapdan çıxmış "Unudulmuş soyqırımı" kitabının təqdimatı haqqında] //Azərbaycan.- 2006.- 16 mart- S. 3.
91. **Akifqızı Ş.** Ki Uest danışıqları ABŞ ictimaiyyətinin diqqət mərkəzindədir //Azərbaycan.- 2001.- 18 aprel.
92. **Aran S.** Azərbaycanda erməni qətliamı //Azərbaycan.- 2002.- 30 mart.- S. 3.
93. **Arif Q.** Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli Azərbaycanın xarici siyasətinin əsas prioritetidir //Xalq qəzeti.- 2006.- S. 3.
94. **Avşar Əbdülhəmid.** Xocalını anlamaq-anlatmaq //525-ci qəzet.- 2006.- 25 fevral.- S. 24.
95. **"Azərbaycan bir gözdür, Qarabağsa bəbəyi"** adlı ədəbi-bədii gecə keçirilmişdir //Azərbaycan.- 2005.- 21 iyun.- S. 6.
96. **Azərbaycanın Dağlıq Qarabağ** üzərindəki suverinliyi

kompromis mövzusu ola bilməz: Terri Devis: "Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir" //Azərbaycan.-2005.- 21 may.- S. 5.

97. **Azərbaycanın iqtisadi** inkişafı Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət təsir göstərəcək //Azərbaycan.- 2006.-18 mart.- S. 2.

98. **Babayev A.** Xəyanət torunu doğramağa Heydər Əliyev zəkası, cəsarəti və qüdrəti tələb olunurdu: Dağlıq Qarabağ münaqişəsinin başlanmasından 15 il ötür //Xalq qəzeti.- 2003.-23 fevral-S. 4.

99. **Bədəlov Ə.** Dağlıq Qarabağ problemi həll edilməli və işğal olunmuş torpaqlarımız azad olunmalıdır //Azərbaycan.- 2001.-14 mart.- S. 4.

100. **Bədəlov Ə.** Qondarma Dağlıq Qarabağ Respub-likasnın "yubileyi" beynəlxalq təşkilatlar tərəfindən pislənildi //Xalq qəzeti.- 2004.- 11 sentyabr.- S. 4.

101. **Cəfərli İ.** Biz Qarabağı unutmaq istəmirik: [M.F.Axundov adına Milli Kitabxanada keçirilən konfrans haqqında] //Paritet.- 2006.- 26-27 oktyabr.- S. 8.

102. **D.Atkinson:** "Millətlərin öz müqəddəratını təyin etməsi" prinsipi Dağlıq Qarabağ barəsində tətbiq oluna bilməz //Azərbaycan.- 2005.- 28 yanvar.- S. 4.

103. **Erməni terroru -** tarixinin qanlı səhifələri //Azərbaycan.- 2006.- 8 fevral.- S. 6.

104. **Əjdər D.** Haydı Qarabağa doğru, igidlər! //Qarabağ.- 2006.- 15-29 sentyabr.- S. 10.

105. **Əliyeva M.** Heydər Əliyev Fondu Qarabağ həqiqətlərinin dünyaya yayılmasına öz töhfələrini verir: "Qarabağ həqiqətləri" bukletlər toplusunun təqdimat mərasimində Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban Əliyevanın çıxışı //Azərbaycan.- 2006.- 25 yanvar.- S. 6.

106. **Əsədov V.** Qarabağın tarixini də qorumaq lazımdır: [Ermənilərin Şuşa ətrafında arxeoloji qazıntı işləri haqqında] //Xalq qəzeti.- 2005.- 23 noyabr.- S. 5.

107. **Əsgərov Şamil.** Yurd yerlərimiz bizi çağırır //Azərbaycan.- 2003.- 3 aprel.- S. 6.

108. **Kəbutər.** Həqiqət itir //Yeni Azərbaycan.- 2005.- 9 aprel.- S. 6.

109. **"Qarabağ** müharibəsinin zəfərlə başa çatdırılması üçün mən Prezidentə necə kömək edə bilərəm" mövzusunda keçirilən elmi-praktik konfranslara yekun vurulmuşdur: [Gədəbəy və Şəmkir rayonlarında] //Azərbaycan.- 2007.- 10 fevral.- S. 7.

110. **Qədimoğlu A.** Dağlıq Qarabağ Münaqişəsi və Tapdanmış İnsan Hüquqları: [Vəfaddin İbayevin "Elm" nəşriyyatında çapdan çıxan "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi insan hüquqları kontekstində" kitabı haqqında] //Azərbaycan.- 2002.- 15 mart.- S. 6.

111. **İsayev Ə**. Ulu dağlar gözləyir: Kəlbəcərin işğalından 11 il keçir //Azərbaycan.- 2004.- 2 aprel.- S. 7.

112. **Mehdixanlı T.** Dəhşətli günlər: Laçının işğalından 13 il keçir //Azərbaycan.- 2005.- 17 may.- S. 6.

113. **Nüsrətbəyli S.** "Diplomatın ölümü, yaxud Qarabağ münaqişəsinin mənbəyinə dair: [AYB-nin Natəvan klubunda filologiya elmləri doktoru Həsən Quliyevin eyni adlı kitabnın təqdimat mərasimi haqqında] //Ədəbiyyat qəzeti.- 2006.- 17 noyabr.- S. 4.

114. **Vəfa Zeynal.** Bəşəriyyətə qarşı yönəldilmiş cinayət //Azərbaycan.- 2006.- 21 fevral.- S. 5.

115. **"Yaddan çıxmaz Qarabağ"** mövzusunda dəyirmi masa keçirilmişdir: [Eyni adlı mövzuda ümumrespublika mədəni-siyasi aksiya-incəsənət həftəsi çərçivəsində M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında keçirilən dəyirmi masa haqqında] //Respublika.- 2006.- 26 oktyabr.- S.5.

## НА РУССКОМ

## КНИГИ

116. **Карабах.**-В.: Чашыоглу, 2004.- 205 с.
117. **Магеррамли З.** Карабахская война: сражались и женщины.- Санкт-Петербург: Лейла, 2005.-271 с.
118. **Мамедова Ф.** Кавказкая Албания и албаны.- Б.: Центр Исслед. Кавказ. Албании, 2005.- 772 с.
119. **Конфликт в Нагорном Карабахе**.- Б.: Азернешр, 1990.- 268 с.
120. **Помпеев Ю.** Кровавый омут Карабаха.- Б.: Азернешр, 1992.- 208 с.
121. **События вокруг НКАО** в кривом зеркале фальсификаторов: (Сб. материалов) /АН Азерб. ССР, Инст. Истории.- Б.: Элм, 1989.- 90 с.
122. **Трагедия длиною в 2 года**: Фотохроника событий (в Азербайджане и Армении, 1998-1990 гг.).- Б.: Азернешр, 1990.- 32 с.
123. **Ходжалы – день последний**: Фотоальбом /Ред.-сост. Б.З.Таибов.- Б.: Азербайджан, 1992.- 16 с.
124. **Ходжалы. Хроника геноцида** /Сост. Э.Ахундова.- Б.: Азернешр, 1990.- 268 с.
125. **Чаладзе Т.** Карабах: Война в лицах, фотохроника октябрь 1992 - апрель 1993 .- Б.: Изд-во Азербайджан, 1990.- 88 с.
126. **Эйюбов А.** Карабах: Краткая хронология большой лжи и фарисейства.- Б., 1998.- 175 с.

## ПЕРИОДИЧЕСКИЕ ИЗДАНИЯ

127. **Абдуллаев Эльчин**. Ни войны, ни мира: 12 лет: (о подписании протокола и соглашения о прекращении огня) //Бакинский рабочий.- 2006.- 12 мая.- С. 6.
128. **Ализаде Р.** Амазонки Карабахской войны: (в Санкт-Петербурге вышла в свет книга писателя – журналиста Земфиры Магеррамли «Карабахская война: сражались и женщины) //Бакинский рабочий.- 2006.- 13 января.- С. 4.
129. **Амирасланов Т.** Жемчужины Карабахской кухни //ИРС «Наследие».- 2005.- № 2-3.- С. 82-85.
130. **Гусейнов Табиб.** Нагорный Карабах: федерализм и интеграция как способ мирного разрешения конфликта //Эхо-плюс.- 2004.- 25 декабря.- С. 11.
131. **Джаббаров З.** День Победы над фашизмом и день оккупации Шуши: (рассказывает академик Джамиль Гулиев) //Бакинский рабочий.- 2006.- 9 мая.- С. 8.
132. **Джаббаров З.** С ностальгией по горам: (2 апреля – День оккупации Кальбаджара) //Бакинский рабочий.- 2006.- 1 апреля.- С. 4.
133. **Заявление Милли Меджлиса** Азербайджанской Республики в связи с 13-й годовщиной оккупации вооруженными силами Армении города Шуша Азербайджанской Республики //Бакинский рабочий.- 2005.- 7 мая.- С. 2.
134. **Карабах** //ИРС «Наследие».- 2005.- № 2-3; 2006.- № 6.
135. **Мусаев Тофик.** Нагорно-Карабахский конфликт: Анализ некоторых ключевых элементов правового характера //ИРС «Наследие».- 2005.- № 4.- С. 40-45.
136. **Памяти жертв Ходжалы** //Бакинский рабочий.- 2006.- 21 февраля.- С. 2.
137. **Сайфуддинова Лейла.** Агрессия армян как фактор внутри политических процессов в Азербайджане //ИРС «Наследие».- 2005.- № 4.- С. 48-50.

138. **Сафарова З.** Шуша – музыкальная столица Азербайджана //ИРС «Наследие».- 2005.- № 2-3.- С. 86-93.
139. **Сахибоглу Р.** Страбон о Кавказской Албании //ИРС «Наследие».- 2005.- № 2-3.- С. 9-10.
140. **Тагиева Р.** Ковровое искусство Карабаха //ИРС «Наследие».- 2005.- № 2-3.- С. 96-99.
141. **Халилов М.** Протоскифы и их потомки в Карабахе //ИРС «Наследие».- 2005.- № 2-3.- С. 14-17.
142. **Хроника агрессии** Армении против Азербайджана (1988-1994) // ИРС «Наследие».- 2005.- № 2-3.- С. 70-71.
143. **Ширванлы А.** Нобелевская премия за мирное разрешение Карабахской проблемы //Новое время.- 2006.- 29 марта.- С. 1.

**Yaddan çıxmaz Qarabağ**

**Ünvan:AZ-1000 Bakı ş., Xaqani küç. 29;**
**E-mail: anl@aznet.org**

**M.F.Axundov ad. Milli Kitabxananın**
**mətbəəsində ofset üsulu ilə**
**çap olunmuşdur.**
**Çapa imzalanmışdır: 20.04.2007**
**Sifariş: 9**
**Tirajı 300**
**Pulsuz**